# QOCAMAN NEFTÇİ ALİM. TƏVAZÖKAR, SƏMİMİ, SADƏ İNSAN VASİF MÜFİDZADƏ — 85

***Haqqında söhbət açacağımız yüksək insani keyfiyyətlərə malik görkəmli neftçi alim, müdrik şəxsiyyət, zadəgan və layiqli nəslin davamçısı, ziyalı Vasif Mir Yusif oğlu Müfidzadədir. Vasif müəllimlə bizim əməkdaşlığımız yarım əsrə yaxındır — Ölkəmizdə 30 il davam edən işğal və müharibə şəraitində, Sovet dövləti dağılandan, Kommunist Partiyası buraxılandan sonra birlikdə işlədiyimiz illərdir. O, elmi fəaliyyəti ilə bərabər institut kollektivinə yaxın olan, ictimai həmkarlar təşkilatının sədri kimi böyük səmimiyyətlə, məharətlə həm kollektivə, həm də rəhbərliyə onların hər bir problemini həll etməyə kömək edən bir insan olmuşdur. Amma bunu heç vaxt qabarıq şəkildə büruzə verib qürurlanmamış, həmişə öz təvazökarlığı ilə seçilmişdir.***

Böyük Azərbaycan yazıçısı və filosofu Abbasqulu ağa Bakıxanovun dediyi kimi insanı dəyərləndirən təvazökarlıq və səmimiyyətdir. Həmin bu nəcib keyfiyyətlər Vasif müəllimin nəslindən gəlir. Belə ki, Vasif müəllimin böyük əmisi Mir Mehdi ağa Müfidzadə Naxçıvan Muxtar Respublikasının tanınmış din xadimlərindən biri olmuşdur. O, dini təhsilini inqlabdan xeyli əvvəl Bağdad, Kərbala, Nəcəf və Qum şəhərlərində din xadimlərini yetişdirən təhsil ocağlarında almış, Vətənə qayıdıb fəaliyyət göstərmişdir.

V. Müfidzadənin atası Mir Yusif ağa Müfidzadə isə Ordubad rayonunun görkəmli ziyalılarından biri olmuş, XX əsrin əvvəllərində rayon mühitində rus dilini mükəmməl bilən bir savadlı və dünyagörüşlü şəxsiyyət idi. Mir Yusif ağa ixtisasca mühasib olsa da, elmə, təhsilə dəyər verən bir insan olmuşdur.

Vasif müəllimin böyük qardaşı Həmid Müfidzadə Respublikamızın görkəmli energetiklərindən biri olmuşdur. 1941-1945-ci illərin müharibəsindən sonra energetika təsərrüfatının bərpası və inkişafında mühüm rolu olmuşdur. Sumqayıt Elektrik şəbəkəsinin yaradıcısıdır, «Azərbaycan Respublikasının əməkdar mühəndisi» fəxri adına layiq görülmüşdür.

V.Müfidzadənin digər qardaşı Cəmil Müfidzadə Respublikanın Xalq rəssamı, görkəmli qrafik, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kafedra müdiri, professoru, Prezident təqaüdçüsü olmuşdur. Vasif müəllimin iki bacısı həkim ixtisasına yiyələnib və bu sahədə fəaliyyət göstəriblər.

Vasif Müfidzadədənin bir dəyərli insan kimi püxtələşməsində ailəsinin böyük rolu olmuşdur.

İndi isə Vasif müəllimin həyatı və elmi yaradılıq fəaliyyətinə nəzər salaq. Vasif Müfidzadə 1940-cı ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur. 1956-cı ildə M.T. Sidqi adına orta məktəbi qızıl medal ilə bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mədən fakültəsinə daxil olmuş və 1961-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirib, neft və qaz yataqlarının işlənməsi ixtisası üzrə dağ mühəndisi adını almışdır.

O, institutu bitirdikdən sonra Qazaxıstan Respublikasının «Manqışlakneftqazkəşfiyyatı» trestinə göndərilmiş və «Jetıbay neft kəşfiyyatı» idarəsində qazımaçı köməkçisi vəzifəsində çalışmışdır. Sonradan o, Vətənə qayıtmış və 1963-cü ildən 1972-ci ilədək «Azərdənizneftkəşfiyyatı» trestinin qazıma idarələrində Bulla və Səngi-Muğan adalarında mühəndis, böyük mühəndis və sahə rəisi vəzifələrində çalışmışdır. Bu dövrdə o, Bulla, Səngi-Muğan adalarında Bulla-dəniz, Hamamdağ-dəniz, Səngəçal-dəniz, İqnatiy və Persianin daşlarında dərin kəşfiyyat quyularının qazılmasında yaxından iştirak etmişdir. Həmin regionda yeni yataqların açılmasında onun da öz payı var.

1970-ci ildə Vasif müəllimin istehsalat fəaliyyəti «Molod jğ Azerbaydjana» qəzetinin marağına səbəb olmuş, onun nailiyyətləri ilə iş yerində tanış olub və onun haqqında maraqlı material dərc etmişdir.

Elmə olan böyük həvəsinə görə V.Müfidzadə 1972-ci ildə Azərbaycan Neft Sənayesinin Dövlət



Elmi-Tədqiqat və Layihə İnstitutuna işə qəbul olunmuş, Avtomatlaşdırılmış İdarəetmə Şöbəsinə mühəndis vəzifəsinə götürülmüşdür. Buradan o, Moskvaya ezam edilmiş, Moskva Neftkimya və Qaz sənayesi İnstitutunda 3 ay neft sənayesində informasiya təminatı məsələlərini öyrənmişdir.

V.Müfidzadə 1973-1975-ci illərdə AzNSETLİ-nin aspiranturasında əyani təhsil almış və sonra elmi fəaliyyətini «Dağ süxurlarının dağıdılması» laboratoriyasında böyük elmi işçi kimi fəaliyyət göstərmişdir.

Vasif müəllim apardığı tədqiqatların əsasında yeni elmi-praktiki nəticələrə gəlmiş, quyu divarlarında deformasiya tipli mürəkkəbləşmələrin qarşısının alınması üçün tədbir və tövsiyələr hazırlamış, onların həyata keçirilməsində bilavasitə iştirak etmişdir. O, həmin mövzuya həsr olunmuş dissertasiya işini 1986-cı ildə Qroznı Neft İnstitutunda müvəffəqiyyətlə müdafiə etmiş və texnika elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

Vasif müəllim 1987-ci ildən isə AzNSETLİ-də əvvəl «Quyuların tikintisinin layihələndirilməsi» laboratoriyasının və 1994-cü ildən isə «Mürəkkəb quyu işlərinin texnika və texnologiyası» laboratoriyasının müdiri vəzifələrində çalışmış və aldığı elmi nəticələrin istehsalata tətbiq edilməsində yaxından iştirak etmişdir.

V.Müfidzadə həm aspiranturada oxuyarkən, həm də sonrakı elmi fəaliyyəti zamanı apardığı tədqiqatlar, aldığı nəticələr haqda həm Bakıda və həm də o zamankı SSRİ-nin bir neçə şəhərində — Moskvada, İvano-Frankovskda, Həştərxanda, Aşqabadda elmi konfrans və simpoziumlarda məruzələrlə çıxışlar etmişdir.

Vasif Müfidzadənin 80-dən çox elmi əsəri və bir ixtirası üzrə müəllif şəhadətnaməsi var. İşlədiyi laboratoriyalarda yerinə yetirilən elmi-tədqiqat işlərinin mövzu rəhbəri və məsul icraçısı olmuşdur. Bunların nəticələri olaraq 5 təlimat və rəhbər sənəd dərc edilmişdir.

2002-ci ildə institutun kollektivi ona etibar edib institut Həmkarlar İttifaqı Komitəsinin sədri seçmişdir. O, öz fəaliyyətində ona xas olan mərhəmət, xeyirxahlıq, haqq-ədaləti gözləmək, obyektivlik prinsiplərini rəhbər tutaraq, əməkdaşların qanuni mənafelərinin qorunmasını, sosial problemlərin həllini, əməyin mühafizəsi kimi mühüm məsələləri yüksək səviyyədə həll edirdi.

Bununla yanaşı Vasif müəllim ictimai fəaliyyətindən əlavə öz elmi işlərini davam elətdirib 2002-ci ildə institutda işlənib hazırlanmış və İstehsalat Birliyində təsdiq edilmiş təlimatın müəlliflərindən biri olmuşdur.

Vasif müəllim müxtəlif illərdə fədakar əməyinə görə ARDNŞ-nin «Azərneft» İstehsalat Birliyinin, AzNSETLİ-nin, Azərbaycan Neft və Qaz Sənayesi işçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin mükafatları və Fəxri Fərmanları ilə dəfələrlə təltif edilmişdir. Bundan əlavə Moskva Beynəlxalq Neft, Qaz və Tikinti işçiləri Həmkarlar İttifaqının qızıl medalı və Fəxri Fərmanı ilə təltif edilmişdir. O, həm də «Şərəfli Əməyə görə» və «Əmək Veteranı» medalları ilə təltif olunmuşdur.

Harada işləməyindən asılı olmayaraq V.Müfidzadə özünü qazıma texnologiyasının mürəkkəb məsələlərini həll edən, istedadlı bir elmi işçi və təcrübəli bir mütəxəssis kimi göstərmişdir. Ən əsası isə odur ki, o, işlədiyi kollektivlərin böyük hörmət və məhəbbətini qazanmışdır.

V.Müfidzadə həm də gözəl ailə başçısıdır. Vasifin həyatda qazandığı bütün uğurlar onun ömürgün yoldaşı Elmira xanım Müfidzadə ilə bağlıdır. Elmira xanım Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin məzunlarından olub, sonra Azərbaycan Sovet Ensiklopediyasının əməkdaşı və orta məktəbdə dil və ədəbiyyat müəllimi kimi uzun müddət fəaliyyət göstərmişdir. Vasif müəllimin bu yaşda belə gümrah qalmasında Elmira xanımın misilsiz zəhməti və qayğısı var. Onların 3 övladı və 6 nəvəsi var. Övladlarının üçü də ali təhsillidirlər.

2010-cu ildən Vasif müəllim təqaüdə çıxmışdır. O, təqaüddə olmasına baxmayaraq, Respublikamızın ictimai-siyasi və iqtisadi həyatı ilə daima maraqlanır, Cənab Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin apardığı daxili və xarici siyasətləri ürəkdən dəstəkləyir. Mənfur düşmənimizin və onun havadarlarının haqsız, ədalətsiz tələblərinin puç ediləcəyinə şübhə etmir. 2020-ci ildə rəşadətli ordumuzun 44 günlük müharibədə möhtəşəm qələbəsi bütün xalqımız kimi Vasif müəllimi də qürurlandırır.

Baharın güllü-çiçəkli, təravətli günlərində əziz və dəyərli dostum, Vasif bəy, səni bu möhtəşəm yubileyin münasibətilə bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, ailə səadəti, fərəhli və firavan günlər, ömrünün doxsana, yüzə və daha yüksək zirvələrə gedən yollarında yeni-yeni uğurlar, ürək dolusu sevinclər arzulayıram!

P.S. *Adətən, mən elmi-publisistik məqalə yazanda onun başlığının altında özümüzün, yaxud xarici, klassik ziyalıların, şairlərin, yazıçıların, müdrik insanların kəlamlarından, aforizmlərindən epiqraf kimi istifadə edirəm. Məqalənin mətni hazır olanda bu məqsədlə əlimin altında olan yazılarımı nəzərdən keçirdim. Qardaşımın mənə verdiyi 2007-ci ildə ölkəmizin Mədəniyyət Nazirliyinin dahi mütəfəkkir Mövlanə Cəlaləddin Ruminin anadan olmasının 800 illik yubileyi münasibətilə keçirilən təntənəli beynəlxalq yığıncağın proqramı əlimə keçdi. 14 səhifəlik kiçik dəftərçədə dərc edilmiş nəfis proqramın sonunda bu dahi insanın dəyərli kəlamları yazılmışdı. Oxudum, düşündüm, çox təsirləndim. İlahi, dünyada necə müdrik insanlar olub... Belə qərara gəldim ki, məqalənin əvvəlində biriki aforizmi yox, sonunda proqramda yazılmış bir neçə kəlamın hamısını verim və geniş oxucu kütləsinə çatdırım. Hesab edirəm ki, dostum Vasif bəy bu kəlamları həyatında özünə rəhbər tutmuş və bütün fəaliyyəti boyu məharətlə istifadə etmişdir. Qoy «Vışka»nın oxucuları da bu kəlamlarla tanış olsunlar və həyatlarında onlardan istifadə edib bəhrələnsinlər.*

*Şəfqət və mərhəmətdə günəş kimi ol!*
*Təvazökarlıqda və sadəlikdə torpaq kimi ol!*
*Xoşgörüdə dəniz kimi ol!*
*Hiddət və əsəbilik anında ölü kimi ol!*
*Başqalarının qüsurunu örtməkdə gecə kimi ol!*
*Sadəlik və yardımetmədə axar su kimi ol!*
*Ya göründüyün kimi ol, ya da olduğunun kimi görün!*

***Qəzənfər ƏLIOĞLU.***